2019-cu ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 587447,3 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 566005,7 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 96,4 faizini təşkil edir.

2019-cu ilin yanvar-iyun aylarında muxtar respublikada tikinti sahəsində 11678 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 1,6 faiz artaraq 495,8 manat olmuşdur.